# “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, 18, maddə 244; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, 3, maddə 142; 2002, 6, maddə 328; 2004, 7, maddə 505; 2006, 12, maddə 1033; 2007, 1, maddə 4; 2010, 5, maddə 386; 2011, 2, maddə 71, 12, maddə 1086; 2012, 2, maddə 62; 2013, 5, maddə 466, 7, maddə 796) aşağıdakı məzmunda 9-cu maddə əlavə edilsin:

“**Maddə 9. Keçid müddəaları**

9.1. 15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının (bundan sonra - 15 yaşı tamam olmamış vətəndaş) fərdi identifikasiya kartının 2020-ci il yanvarın 1-dən tətbiq ediləcəyini nəzərə alaraq, 15 yaşı tamam olmamış vətəndaşlara da *2018-ci il sentyabrın* 1-dən 2020-ci il yanvarın 1-dək olan müddətdə şəxsiyyət vəsiqəsi verilir.

9.2. 15 yaşı tamam olmamış vətəndaşa şəxsiyyət vəsiqəsinin verilməsi və ya dəyişdirilməsi onun valideyninin, vətəndaşı övladlığa götürənin, vətəndaşın qəyyumunun və ya himayəçisinin (bundan sonra - qanuni nümayəndəsinin) ərizəsi və müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə”də nəzərdə tutulan digər sənədlər əsasında həyata keçirilir.

9.3. 15 yaşı tamam olmamış vətəndaşa verilən şəxsiyyət vəsiqəsində onun fotoşəkli yerləşdirilir, lakin şəxsi imzası göstərilmir.

9.4. 15 yaşı tamam olmamış vətəndaşa verilən şəxsiyyət vəsiqəsinin elektron daşıyıcısına vətəndaşın ailə vəziyyəti, boyu, gözlərinin rəngi, hərbi vəzifəsi və bu Qanunun 3-cü maddəsinin ikinci hissəsinin altıncı-səkkizinci abzaslarında göstərilən məlumatlar daxil edilmir.

9.5. 5 yaşadək olan vətəndaşa verilən şəxsiyyət vəsiqəsi vətəndaşın 5 yaşı tamam olanadək, 5 yaşı tamam olmuş vətəndaşa verilən şəxsiyyət vəsiqəsi isə vətəndaşın 15 yaşı tamam olanadək etibarlıdır.”.

**Maddə 2.** Bu Qanun *2018-ci il sentyabrın* 1-dən qüvvəyə minir.[1]

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 dekabr 2015-ci il
86-VQD

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 29 noyabr 2016-cı il tarixli **434-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 18 dekabr 2016-cı il, 281 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2029**)
2. 17 noyabr 2017-ci il tarixli **883-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 10 dekabr 2017-ci il, 273 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, I kitab maddə 2241**)
3. 29 iyun 2018-ci il tarixli **1217-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 17 iyul 2018-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1433**)

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] 29 noyabr 2016-cı il tarixli **434-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 18 dekabr 2016-cı il, 281 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 12, maddə 2029**) ilə 1-ci maddənin üçüncü abzasında və 2-ci maddədə “**2017-ci il**” sözləri “**2018-ci il**” sözləri ilə əvəz edilmişdir.

17 noyabr 2017-ci il tarixli **883-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 10 dekabr 2017-ci il, 273 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 7, I kitab maddə 2241**) ilə 1-ci maddənin üçüncü abzasında və 2-ci maddədə “**2018-ci**” sözləri “**2019-cu**” sözləri ilə əvəz edilmişdir.

29 iyun 2018-ci il tarixli **1217-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 17 iyul 2018-ci il, 156, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1433**) ilə 1-ci maddəsinin üçüncü abzasında və 2-ci maddəsində “**2019-cu il yanvarın**” sözləri “**2018-ci il sentyabrın**” sözləri ilə əvəz edilmişdir.